**Azərbaycan Respublikası Energetika Nazirliyinin tabeliyində Enerji Məsələlərini Tənzimləmə Agentliyi tərəfindən hüquqi və fiziki şəxslərə verilən icazələr barədə məlumat**

| Xidmətin adı | Tələb olunan sənədlərin siyahısı |
|---|---|
| **Sənaye qaz qurğusunun istismarına icazə** | 1) ərizə;<br>2) qazın nəqli sistem operatorunun və ya qazpaylayıcı sistem operatorunun verdiyi texniki şərt;<br>3) qazın nəqli sistem operatoru və ya qazpaylayıcı sistem operatoru ilə razılaşdırılmış qaz təchizatı layihəsi;<br>4) tikinti-quraşdırma işlərini aparmış şəxslə sifarişçi arasında təhvil-təslim aktı;<br>5) buraxılış-sazlama və rejim-sazlama işlərinin yekununa dair akt;<br>6) quraşdırılmış sənaye qaz qurğularının texniki pasportları;<br>7) qaz sayğacının quraşdırılması aktı;<br>8) ərizəçi hüquqi şəxs, xarici hüquqi şəxsin filialı, nümayəndəliyi olduqda, hüquqi şəxslərin dövlət reyestrindən çıxarışın surəti;<br>9) ərizəçi fərdi sahibkar olduqda, şəxsiyyət vəsiqəsinin surəti;<br>10) ərizəçinin vergi ödəyicisi kimi uçota alınması haqqında şəhadətnamənin surəti;<br>11) ərizədə qeyd olunan obyektlərdən hər biri üzərində ərizəçinin mülkiyyət, istifadə və ya icarə hüququnu təsdiq edən sənədin surəti (əgər lisenziya tələb olunan fəaliyyətin həyata keçirilməsi və icazə tələb olunan hərəkətin yerinə yetirilməsi obyektlə bağlıdırsa). |